**Xalq qəzeti.** - 2024.- 28 mart. - № 63. - S. 10.

# Keçmişlə gələcəyin görüş yeri

## 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür

**Əminə Yusifqızı,**
Əməkdar jurnalist

**İnsan qədim zamanlardan hər şeyin ən dəyərlisinə, fərqlisinə və gözəlinə can atmış, xüsusilə maddi və mənəvi cəhətdən qiymətli olana, müqəddəs bildiyinə özəl yanaşmış, onu toplamış və qorumuşdur. Elə bilirəm, sənət ruhunun formalaşması, nəticə etibarilə muzeylərin əsasının qoyulması da bundan irəli gəlib. Ona görə də, muzeyləri keçmişlə gələcəyin görüş yeri, yaxud, körpüsü adlandırırlar. Təkcə əşyaları, bəlgələri, heykəlləri, tikmə-toxumaları, pul-paraları qorumaq üçün deyil, həm də öyrətmək, məlumatlandırmaq, maarifləndirmək məqsədi daşıyır muzeylər. Orda sərgilənən hər əşya, hər dəlil, sənət nümunəsi xalqı, onun mədəniyyətini, tarixini, yaşam tərzini, hətta taleyini ifadə edir. Azərbaycan xalqının da qədim və müasir mədəniyyətini ifadə edən dünya səviyyəli muzeyləri var. Amma coğrafi qədər anlayışının mövcudluğunu da bildirməliyik. Təəssüf ki, xalqımız hər zaman terrora, soyqırıma məruz qalıb. Dünyada soyqırımı muzeyləri çox deyil. Qəribədir ki, belə muzeylərin əksəriyyəti türk-müsəlman ölkələrindədir, özəlliklə də Türkiyədə və Azərbaycanda. Çünki coğrafiyamız qədərimizdir, qonşularımız isə son dərəcə məkrlidir...**

İllər öncə Quba şəhərindəki Soyqırımı Memorial Kompleksini ziyarət edərkən, bir xanım diqqətimi çəkdi. Dayanmadan şəkil çəkir, suallar verir, dəftərçəsində qeydlər edirdi. Kimliyi ilə maraqlandım, rusiyalı jurnalist olduğunu deyən İrina Vladimirovnaya xüsusi yanaşması üçün təşəkkür edib, daha dolğun məlumat verməyə çalışdım. Söhbət əsnasında dedi ki, illər əvvəl Ermənistandakı soyqırımı muzeyində olmuş və oradan da böyük reportaj hazırlamışdır. Soruşdum ki, Ermənistandakı muzeydə soyqırımı ifadə edən insan sümükləri və ya bir ədəd də olsa, kütləvi məzarlıq nümayiş olunurmu? Burada gördüyünüz dəlilləri orada da gördünüzmü? Reportaj hazırlayarkən soyqırımını sübut edən insan qalıqlarını, məzarlığı göstərə bildinizmi? Baxın, bu muzeydə heç bir dekorasiyadan, bəzək-düzəkdən istifadə olunmayıb, məzarlıqlar olduğu kimi gün üzünə çıxarılıb. 1915-ci ildən indiyədək Ermənistan dövləti türklərin onlar üçün qazdığı bircə kütləvi məzarlığı üzə çıxara bilsə, onlara soyqırımı muzeyini türklər özü tikər. Amma göstərə bilməzlər, çünki yoxdur. Sizdən xahiş edirəm: şahidi olduqlarınıza ədalətli yanaşın.

Ona məsləhət gördüm ki, Türkiyəyə getsin, İğdırdakı Şəhid Türklər Anıt Muzeyini ziyarət etsin. O muzeyin olduğu yer Ermənistan sərhədinə 15 kilometr yaxınlıqdadır. Orada sərgilənən onlarca kütləvi məzarlığa baxın və soyqırımının nə demək olduğunu öyrənin. Şərqi Anadolu bölgəsində daşnakların qətl etdikləri türklərə aid yüzlərlə kütləvi məzarlıq var və onların bir neçəsi həmin muzeydə sərgilənir.

İki yüz ildir ki, eyni taleyi yaşayırıq, iki yüz ildir ki, ölkəmizin hər yeri açıq səma altında soyqırımı "muzeyi"dir. Ayağımızı yerə basarkən canımız yanır, hər qarış torpağımızın altında qətledilmiş yaşlı, uşaq, gənc, qadın sümükləri sızlayır. Bunları bir daha yaşamamaq, tarixin acı dərsləri kimi soyqırımlarımızı muzeylərdə toplayıb, gələcəyə ötürmənin zamanıdır artıq.

1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olmuş on minlərlə azərbaycanlının xatirəsinə ucaldılan ilk Soyqırımı Memorial Kompleksi Qubada açıldı. Lakin tariximizin son dönəmlərində Qarabağda baş verən qanlı hadisələrdə silahsız, köməksiz qalan xalqımız dəfələrlə soyqırımı dəhşətini yaşadı. Xocalı, Ağdaban, Qaradağlı, Meşəli, Malıbəyli-Quşçular soyqırımları törədildi, günahsız insanlar amansızlıqla qətlə yetirildi. Bunlar beynəlxalq ictimaiyyətin gözü qarşısında baş versə də, dünyanın xalqımıza qarşı bəsirət gözü bağlandı, bununla da, Ermənistanın dövlət terrorizmi daha geniş vüsət aldı.

### Muzeyə gəl, tarixini öyrən!

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyi ölkəmizdə bu təyinatlı ikinci muzeydir. Demək olar ki, böyük bir kompleks, hətta araşdırma, elmi mərkəzdir. Təəssüflə qeyd edək ki, işğaldan azad edilmiş ərazilərimizdə aşkarlanan kütləvi məzarlıqlar bundan sonra hələ neçə belə soyqırımı muzeylərinin yaradılacağından xəbər verir. Qısa müddətdə Xocavənddə, Xocalıda, Şuşada və ətraf bölgələrdə 13 məzarlıq qeydə alınıb. Aşkarlanan qalıqların işgəncələrə məruz qaldıqları müəyyənləşib. Onların, haradasa, 25 il əvvəl öldürülərək, kütləvi şəkildə bastırıldığı məlum olub. Mütəxəssislərin fikrincə, işğaldan azad olunmuş bölgələrimizdə belə kütləvi məzarlıqlar çoxdur.

Hərbi Prokurorluğun nəzdində fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyi 24 fevral 2014-cü ildən fəaliyyətdədir. Əgər dünyada ədalət varsa, gəlsinlər, görsünlər, öyrənsinlər, araşdırsınlar. Muzeydə bütün tədqiqatçılara yetəcək qədər material, sənəd, kitab və maddi sübutlar toplanıb.

Prokurorluğun təşəbbüsü ilə yaradılan muzey xalqımızın 200 ilə yaxın bir tarixdə yaşadığı faciələrin əyani şəkildə, maddi və mənəvi sübutlarla təsdiqidir. İçəri girəndə, insanın ilk ağlından keçən fikir bu olur: İlahi, biz nələr yaşamışıq?! Əsrlərdir bu zülmə necə dözmüş və məhv olmamışıq?! Bu qədər soyqırımlar, qətllər, repressiyalar, terror hadisələri, zülm və işgəncələr olarmı?!

Muzeyi yaratmaqda məqsəd erməni millətçilərinin xüsusi amansızlıq və qəddarlıqla törətdikləri kütləvi qırğınların, insanlıq əleyhinə törədilən cinayətləri tariximizin yaddaşına həkk etmək, əşyayi-dəlil kimi, onları dünyaya göstərmək və qan yaddaşımızı unutmamaq üçün gələcək nəsillərə geniş məlumat və tutarlı dəlillərlə verməkdir. Millətə ən böyük xidmətlərdən biri də budur, hər vətəndaş xalqının tarixini buradan öyrənə, yaşadığı faciələri tanıya bilər. Nümayiş olunan bütün fakt və sənədlər, eksponatlar prokurorluq tərəfindən istintaq materialları əsasında yaradılıb. Muzey XX əsrin əvvəllərindən bəri bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə soydaşımızın əziz xatirəsinə həsr edilib.

Dünyanın ən üstün standartlarına uyğun təşkil edilmiş muzey ilk baxışdan ziyarətçini bir xalqın yaşadığı faciələrlə əhatəli şəkildə tanış edir, divarlardan baxan qandonduran şəkillər, sərgilənən sənədlər buz kimi kəsir insanın ruhunu. İstər 1918-ci ilin Mart soyqırımının əks olunduğu stendlər, məlumatlar, fakt və rəqəmlər, istər otuzuncu illərin qanlı repressiya qurbanlarına həsr edilmiş məlumat və şəkillər, istərsə də, son 30 illik tariximizin qara səhifələri olsun - hər ekspozisiya unikal arxiv sənədləri ilə zəngindir.

320 kvadratmetr sahəni əhatə edən muzey 4 bölmədən ibarətdir. Hər bölmədə tariximizin qara səhifələri barədə nümayiş olunan maddi və mənəvi sübutlar - divarlardan asılan şəkillər, qana boyanmış hərbi bilet və ya pasport sənədləri bir haraydır, çağırışdır, xalqımıza qarşı qalxan qanlı əllərə üsyandır. Fəxrlə deyə bilərik ki, o əllər bu gün “dəmir yumruğ”a çevrildi və zərblə düşmənin başına endi. Müzəffər Ali Baş Komandanımızın dediyi kimi, bundan sonra “dəmir yumruq” hər zaman yerində olacaq.

Muzey ekspozisiyası müxtəlif dillərdə təqdim olunur. Faciələr və qətllər ayrı-ayrı bölmələrdə zəngin foto, arxiv sənədləri, statistik məlumat və diaqramlarla verilib. Hər bölmənin qarşısında da məlumat bazası Azərbaycan və ingilis dillərində öz əksini tapıb.

Muzey Tarix, Deportasiya-repressiya, Soyqırımı və Terror bölmələrindən ibarətdir. Girişdə yerləşdirilmiş rəsm əsərləri şiddətli ağrıları təcəssüm etdirir və soyqırımı qurbanlarının matəm sükutunu özündə daşıyır. Giriş “Xocalı fəryadı” adlı böyük rəsmlə başlayır. Fəxrlə deyə bilirik ki, Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar 2012-ci ilin fevralın 26-da Prezident İlham Əliyevin rəhbərliyi altında 100 mindən artıq insanın Xətai rayonu ərazisindəki “Ana fəryadı” abidəsinə keçirilmiş yürüşünün iri həcmli fotoşəkili yerləşdirilib.

Muzey xalqımızın məruz qaldığı soyqırımı hadisələrinin beynəlxalq aləmdə tanıdılmasında mühüm rola malikdir. Hər şey aşkardır, inkaredilməz fakt və dəlillərdən, mühüm sənədlərdən ibarətdir. Muzeydə toplanmış məxəzlərlə biz cinayəti törədənləri ədalət mühakiməsində cavab verməyə məcbur edə bilərik və şübhə yoxdur ki, günlərin birində bu da baş verəcək. Ermənistan 110 ildir ki, “erməni soyqırımı” deyə fəryad edib, dünyanı bu qondarma iddiaya inandırmaq istəsə də, indiyədək ortaya nə bir maddi sübut, nə elmi araşdırma, arxiv sənədi qoya bilib. Bizim sübutlarımız isə göz önündədir. Nə edək ki, dünya bunları qəbul edəcək qədər obyektiv deyil...

Tarix və Deportasiya-repressiya bölmələrində XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif bölgələrinin ermənilər tərəfindən dağıdılıb, viran edilmiş görüntüləri əks olunub. Quraşdırılmış sensor ekranlı monitorda göstərilən xəritədə ermənilərin ötən əsrdə müxtəlif bölgələrdə xalqımıza qarşı həyata keçirdikləri soyqırımları barədə bir neçə dildə məlumat yerləşdirilib. Bu bölmədə Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ifşa olunaraq, dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördüyü işlərin və imzaladıqları sərəncamların nümayiş etdirildiyi guşə yaradılıb. Quba, Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında ermənilərin törətdikləri vəhşiliklər haqqında da dolğun məlumatlar yer alıb. Rusiya imperiyası və İran dövləti arasında bağlanmış və Azərbaycanı ikiyə bölən “Gülüstan” və “Türkmənçay” müqavilələri, “Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırımı siyasətinin deportasiya və sürgün mərhələsi” kompozisiyası, 1930-cu illərdə repressiya qurbanı olmuş Azərbaycan ziyalılarına və görkəmli şəxsiyyətlərinə qarşı açılmış cinayət işlərindən götürülmüş fraqmentlər, azərbaycanlıların tarixi torpaqlarından son deportasiyasını əks etdirən fotolar da sərgilənir. 1988–1991-ci illərdə ermənilərin etnik təmizləmə siyasəti nəticəsində Ermənistandakı 185 azərbaycanlı kəndindən 350 min nəfər azərbaycanlı təcavüzə məruz qalaraq, doğma yurd-yuvalarından qovuldu. 217 nəfər qətlə yetirildi, 1154 nəfər yaralandı, yüzlərlə insana işgəncə verildi.

Muzey işi o qədər mükəmməl şəkildə təşkil olunub ki, hətta ən adi ziyarətçi də bütün bunların nümayişi üçün nə qədər ağır zəhmət sərf olunduğunun fərqindədir.

Soyqırımı və Terror bölmələrində erməni silahlı birləşmələri və Sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə hücumu ilə bağlı maket və fotolar, habelə digər maddi sübutlar, sənədlər və eksponatlar yerləşdirilib. Bu bölmədə 1:7500 miqyasında maket

qurulub. Hərbi Prokurorluq tərəfindən aparılmış ibtidai istintaq materiallarına uyğun olaraq, hücum zamanı erməni silahlı birləşmələri və 366-cı alayın bölmələrinin yerləşdiyi ərazilər və xüsusi amansızlıqla qətlə yetirilən dinc əhalinin meyitlərinin olduğu yerlər də maketdə əks olunub.

Qeyd etmək yerinə düşər ki, 2005-ci il mayın 5-dən etibarən Respublika Hərbi Prokurorluğu tərəfindən istintaq olunan həmin iş üzrə insanlıq əleyhinə müharibə cinayətləri törətmiş 296 nəfərin təqsirləndirilən şəxs qismində cəlb olunmalarına dair qərarlar çıxarılmaqla, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, axtarışları elan edilib.

Bölmələrdə, həmçinin fakt üzrə aparılan cinayət işinin cildləri, hadisə yerinə baxış protokolları, erməni təcavüzkarlarının törətdikləri vəhşilikləri sübut edən əşyalar, ekspert rəyləri, ifadələr, meyitlərin fotoşəkilləri və eləcə də Xocalıda, Meşəlidə, Qaradağlıda və digər yaşayış məntəqələrində cinayət izlərini özündə əks etdirən əşyalar yer alıb. 1991-ci ildə Meşəlidə tamamilə qətlə yetirilmiş Novruzovlar ailəsinə məxsus qandonduran fotoşəkillər, əşyalar, üst qadın geyimləri və yarımçıq qalmış toxuma da unikal eksponat kimi sərgilənir. Kütləvi qırğın zamanı hadisə yerindən götürülmüş partladıcı qurğular, güllə başlıqları nümunələri də muzeydə nümayiş etdirilir.

Respublika hərbi prokurorunun köməkçisi, prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firat Əliyev mənimlə söhbətində bildirdi ki, fəaliyyətə başladığı gündən indiyədək muzeyi 35 mindən çox insan ziyarət edib. Təkcə bu il 3000 nəfərdən çox ziyarətçi qəbul olunub. Ziyarətçilərə Hərbi Prokurorluğun müvafiq əməkdaşları tərəfindən muzey haqqında məlumat verilir. Muzeyi ziyarət etmək ödənişsizdir.

Bəli, qürurverici faktdır ki, Respublika Hərbi Prokurorluğu böyük əmək sərf edərək, bunu bacarıb və xalqımızın 200 illik faciələrlə dolu soyqırımı tarixini, hərbi cinayətlərin istintaq materiallarını toplayaraq, böyük bir mərkəzdə birləşdirib. Qeyd etdiyimiz kimi, bura təkcə ziyarət etmək üçün deyil, öncə yetişməkdə olan nəslin üzərinə bu həqiqətləri dünyaya eşitdirmək və qəbul etdirmək öhdəliyi qoyulmalıdır. Artıq əziyyət çəkməyə, arxivlərdə, kitabxanaların oxu zallarında aylarla vaxt itirməyə ehtiyac qalmır, bütün məlumatlar burada ən yüksək səviyyədə nümayiş olunur. Muzey geniş oxucu kütləsi, araşdırmaçılar, tədqiqatçılar üçün zəngin mənbədir. Yetər ki, tariximizi öyrənək təbliğ edək, dünyanı gerçəklərə inandırmağı bacaraq.